Qəzet
1931-ci ilin
aprelindən
çıxır

# DƏNİZ

16 sentyabr
2014-cü il
№ 29-30 (8943)
Qiyməti
38 qəpik

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin qəzeti

# “Əsrin müqaviləsi”– 20 il



**“Əsrin müqaviləsi” ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmləndirilməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

**Bizim bugünkü inkişafımız, bugünkü nailiyyətlərimiz, Azərbaycanın həqiqətən müstəqil ölkə kimi dünya birliyinə qədəm qoyması böyük dərəcədə “Əsrin müqaviləsi”nin imzalanması ilə bağlıdır. Bu, çox cəsarətli və müdrik addım idi. Ulu öndər Heydər Əliyev tərəfindən atılan bu addım Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, Azərbaycanın hərtərəfli inkişafına xidmət edir.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# “ƏGƏR BİZİM XÜSUSİ GƏMİLƏRİMİZ OLMASAYDI...”

**20 il əvvəl - 1994-cü il sentyabrın 20-də dünyanın ən iri və nüfuzlu neft-qaz şirkətlərinin iştirakı ilə Xəzər akvatoriyasının “Azəri-Çıraq- Günəşli” yataqlarından neftin hasilatı ilə bağlı “Əsrin müqaviləsi” adlanan beynəlxalq neft sazişi imzalanmışdır.**







Sentyabrın 20-də müstəqil Azərbaycanın neft strategiyasının reallaşdırılması istiqamətində ilk addım sayılan “Əsrin müqaviləsi” nin imzalanmasının 20-ci ili tamam olur. Belə ki, düz iyirmi il əvvəl - 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın yeddi ölkəsini təmsil edən on bir iri neft şirkəti ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Xəzərin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş imzalandı. Cəbhə bölgəsində atəşkəs rejiminin kövrək olduğu, dövlət idarəetmə mexanizminin hələ tam oturuşmadığı, bəzi qonşu dövlətlərlə münasibətlərdə ciddi psixoloji-siyasi gərginliyin hökm sürdüyü, Xəzərin hüquqi statusu ilə bağlı mübahisələrin kəskinləşdiyi bir vaxtda belə bir sazişin imzalanmasına nail olmağa yalnız bir rəhbərin gücü, məharəti, cəsarəti, qətiyyəti çata bilərdi: Ulu öndər Heydər Əliyevin! Məhz Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Məhz Ulu öndər Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətlərdən xilas etmək üçün bütün mühüm tədbirləri görməyə başladı.

Məhz Ulu öndər bütün kənar maneələrə mətinliklə sinə gərərək Qərbin aparıcı şirkətlərini bu müqavilənin səmərəliliyinə inandıra bildi. Bu, sadəcə Azərbaycanın neft sənayesinin yeni inkişaf dövrünə qədəm qoyması demək deyildi. Bu, həmin dövr üçün Azərbaycanın bəlalardan qurtulmaq , müstəqilliyini qoruya bilmək imkanı demək idi. “Əsrin müqaviləsi” həm də ölkənin iqtisadi yüksəlişi üçün təməl daşı idi.

Möhtərəm Prezidentimiz İlham Əliyevin sözləri ilə ifadə etsək: ”Əsrin kontraktı”nın Azərbaycan tarixində xüsusi yeri vardır və Azərbaycanın müstəqil ölkə kimi yaşamasında bu rol əvəzolunmazdır. O vaxt bizim nə imkanlarımız var idi, nə də vəsaitimiz. Ölkədə sənaye sahəsində hələ ki, tənəzzül yaşanırdı, iqtisadiyyat demək olar ki, çökmüşdü. Müstəqil ölkə üçün yaşamaq çox çətin idi. Müstəqilliyimiz demək olar ki, şübhə altında idi. Məhz o çətin illərdə Azərbaycana investisiyalar gətirmək, Azərbaycanı dünya birliyinə etibarlı tərəfdaş kimi təqdim etmək, xarici investorlar üçün münbit şərait yaratmaq, eyni zamanda, Azərbaycanın dövlət maraqlarını tam şəkildə qorumaq böyük siyasi təcrübə, bilik və məharət tələb edirdi.”

Əslində “Əsrin müqaviləsi”nə ilk xeyir-duanı Ulu öndərimizin hələ keçmiş SSRİ-nin vaxtında respublikamızda yaratdığı nəhəng neft sənayesi kompleksi verdi. Dövlət başçımızın vurğuladığı kimi: “Bizim çox inkişaf etmiş neft infrastrukturumuz, xüsusi gəmilərimiz və platformalarımız olmasaydı, “Əsrin kontraktı”nın imzalanması, hesab edirəm ki, bizə o qədər də böyük səmərə verməzdi, ümumiyyətlə, xarici şirkətlər 1994-cü ildə Azərbaycana sərmayə qoyacaqdı-qoymayacaqdı, bu, hələ sual doğururdu”.

*(Davamı 2-ci səhifədə)*

# "Əsrin müqaviləsi"– 20 il

## "ƏGƏR BİZİM XÜSUSİ GƏMİLƏRİMİZ OLMASAYDI..."

(Əvvəli 1-ci səhifədə)

Ulu öndərimizin sarsılmaz iradəsi ilə həyata vəsiqə qazanan və sonralar layiqli varisi möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən çox məharətlə davam etdirilən yeni neft strategiyası o vaxtlar ARDNŞ-in tərkibində olan Xəzər Dəniz Neft Donanmasının da qarşısında yeni üfüqlər açdı. Belə ki, "Əsrin müqaviləsi" çərçivəsində nəzərdə tutulmuş bir sıra mühüm işlərin yerinə yetirilməsində donanmamızın kəşfiyyat, kran, təchizat, yedək gəmilərinin xidmətlərindən geniş istifadə edilməyə başlandı. Məhz XDND Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin sifarişləri əsasında sualtı boru kəmərlərinin çəkilişini təmin etdi, yeni tikilmiş platformaların, dayaq bloklarının hasilat nöqtələrinə nəqli, dəniz obyektlərinin quraşdırılması, onların təhlükəsizliyinin təmin olunması, dalğıc işlərinin görülməsi kimi mürəkkəb əməliyyatların öhdəsindən layiqincə gəldi. Və təbii ki, bu müddətdə donanmanın modernləşdirilməsinə, daha müasir nəqliyyat vasitələri ilə təchiz edilməsinə də xüsusi diqqət yetirilirdi.

Dənizçilərimizin təkcə "Əsrin müqaviləsi" çərçivəsində Xəzərdə çıxarılan karbohidrogenlərin dənizdən sahilə nəqli üçün yeni infrastrukturun yaradılmasındakı xidmətlərini xatırlayanda, sinəmiz iftixar hissi ilə dolur. "Azəri" yatağı işlənməyə başlandığı dövrdən Xəzərin Azərbaycan bölməsində çəkilən kəmərlərin ümumi uzunluğu 1000 kilometri ötdü. Sayı 20-ni keçən bu sualtı kəmərləri çəkmək üçün ümumi çəkisi yarım milyon tondan çox olan borulardan istifadə edilirdi. Boru xətləri keçən sahədə suyun dərinliyi bəzən 180 metrə çatırdı. Neft və səmt qazını dənizdən sahilə nəql etmək üçün ayrıca kəmərlərin inşası neftçilərlə yanaşı, məhz "İsrafil Hüseynov" borudüzən, "Akademik Tofiq İsmayılov" dalğıc gəmiləri ... dənizçilərinin böyük fədakarlığı ilə gerçəkləşdi. Və yaxud, Xəzərin dibindəki xəzinəni hasil etmək üçün dənizdə ən müasir platformalar quraşdırılır. Hər platformanın dayaq tavası, dayaq bloku, qazma, hasilat, yaşayış hissələri və sair qurğuları var. Ayrı-ayrı avadanlıqları xaricdən gətirilən və yerli infrastrukturlardan istifadə olunaraq ölkəmizdə inşa edilən platformaların tikintisi hələ hər şey demək deyil. İşin qalan yarısı donanmamızın çiyninə düşür. Belə ki, qurğuları dənizə ixtisaslaşmış gəmilərimiz aparır və orada xüsusi təyinatlı digər gəmilərimiz onların quraşdırılmasını həyata keçirir. Xəzərin hansı hissəsində platformalar quraşdırılırsa, deməli bizim "Azərbaycan" kran gəmisi oradadır...





Hazırda Xəzər Dəniz Neft Donanmasının ümumi yükqaldırma qabiliyyəti 77 867,8 ton və ya 354 719,5 at gücünə malik 184 gəmisi (bura kran, təchizat-yedək, dalğıc, borudüzən, mühəndis-geoloji, sərnişin və sair gəmilər daxildir) var. Gəmilərimizlə dəniz şelfində neft-qaz çıxarılması ilə bağlı müxtəlif təyinatlı xidmətlər göstərilir. Bura seysmik və geoloji axtarış, dəniz özüllərin daşınması və estakadaların tikilməsi, neft-qaz quyularının qazılması, dəniz obyektlərinin abadlaşdırılması, istismar dövründə təmir işlərinin təmin olunması, yanğından mühafizəsi, neft-qaz kəmərlərinin çəkilməsi, neftçilərin iş yerlərinə çatdırılması, yanacaq-sürtkü materiallarının, kimyəvi reagentlərin daşınması, sualtı-texniki, qəza-xilasetmə işləri və sair daxildir. Donanmamız bağlanmış müqavilələr əsasında Dövlət Sərhəd Xidməti, Fövqəladə Hallar Nazirliyi, Bahar Enerji Əməliyyat Şirkəti, Baku Steel Company, Bakı Gəmiqayırma Zavodu, habelə BP, Saipem, Transmarine, Arizona, BUE-Caspian, CMS və sair şirkətlərin sifarişlərini vaxtında və keyfiyyətlə yerinə yetirməyə çalışır.

Sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasının 20 ili tamam olur. Sentyabrın 20-si həm də Neftçilər günüdür. Məşhur neftçilərdən birinin sözüdür: "Hansı sahədə çalışmağımızdan asılı olmayaraq hər birimiz az və ya çox dərəcədə neftçiyik." Gözəl deyilib. Belə isə, bayramınız mübarək!

**Rasif TAHİROV**

## "ƏSRİN MÜQAVİLƏSİ"NDƏN BTC-YƏ GEDƏN YOL



1994-cü ilin sentyabrında Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsi haqqında xarici neft şirkətləri konsorsiumi ilə danışıqların yekunları barəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev fərman imzaladı. Bu fərmanla Azərbaycan Dövlət Neft Şirkətinə Beynəlxalq Şirkətlər Konsorsiumu ilə müqavilə imzalamağa icazə verildi. Bu beynəlxalq konsorsiuma "AMOKO Kaspian Si Petroleum Ltd", "Britiş Petrolium Ltd", "Britiş Petroleum Eksporeyşn (Kaspian Si) Ltd, "Den Norske Stats Olyeselskap A. S.", "Lukoyl səhmdar cəmiyyəti", "Mak-Dermott Azərbaycan, İNK", "Pennzoyl Kaspian korporeyşn", "Remko Xəzər enerji Ltd", "Türkiyə Petrolleri A. O." və " YUNokal Xəzər Ltd" şirkətləri daxil idi. Müqaviləyə əsasən neft yataqlarının 30 il müddətində işlədilməsi nəzərdə tutulur.

### 20 SENTYABR 1994-CÜ İL

Bakının "Gülüstan" sarayında Xəzər dənizinin Azərbaycan bölməsində yerləşən və neft ehtiyatları 500 milyon tondan çox olan "Çıraq", "Azəri" və "Günəşli" yataqlarının birgə istismarı haqqında Beynəlxalq Şirkətlər Konsorsiumu ilə müqavilənin təntənəli imzalanması mərasimi keçirildi.

### 2 DEKABR 1994-CÜ İL

Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "AMOKO Kaspian Si Petroleum Limited", Bi-Pi Eksploreyşn ( Kaspian Si) Limited", "Delta Himir Xəzər Limited", "Den Norske Stats Olyeselskap A.S.", "Lukoyl Səhmdar Cəmiyyəti", "MakDermott Azərbaycan İNK.", " Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerci Limited", " Türkiye Petrolleri A.O.", " YUNokal Xəzər Ltd" arasında sazişin qəbul və təsdiq edilməsi, onun həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının qanunu imzalandı.



### 20 İYUN 1995-Cİ İL

Xəzər dənizinin "Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumi arasında 1994-cü il sentyabrın 20-də bağlanmış saziş ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Türkiyə Petrolleri A. O." arasında 1995-ci il 12 aprel tarixli alqı-satqı haqqında müqavilənin və ona əlavə edilmiş sənədlərin bəyənilməsi və qanunun qüvvəyə minməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev fərman imzaladı.

(Davamı 3-cü səhifədə)

# “Əsrin müqaviləsi”– 20 il

## “ƏSRİN MÜQAVİLƏSİ”NDƏN BTC-YƏ GEDƏN YOL

*(Əvvəli 2-ci səhifədə)*

**BU, XƏYAL DEYİL, ƏFSANƏ DEYİL, ÜÇ DƏNİZ - XƏZƏR DƏNİZİ, QARA DƏNİZ, ARALIQ DƏNİZİ BİRLƏŞƏCƏKDİR.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**



### 29 DEKABR 1995-Cİ İL

Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”,”Çıraq” yataqlarından və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsindən çıxarılan ilkin neftin ixracına aid sənədlərin bəyənilməsi və təsdiq olunması haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sərəncam imzaladı.

### 24 AVQUST 1996-CI İL

Birinci nəhəng “Dədə Qorqud” üzən yarımdalma qazma qurğusu fəaliyyətə başladı.

### 5 SENTYABR 1997-Cİ İL

Əsas ixrac neft kəməri marşrutunun seçilməsi ilə əlaqədar işçi qrupunun yaradılması və ona danışıqların aparılması üçün lazım olan bütün səlahiyyətlərin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı imzalandı.

İşçi qrup əsas ixrac neft kəməri marşrutunun seçilməsi, onun idarə edilməsi üzrə müvafiq şirkətin yaradılması barədə təkliflər hazırlamaq və sərmayəçilərin, digər əlaqədar təşkilatların iştirakı ilə neft kəmərinin çəkilişi zamanı ortaya çıxan məsələlərin operativ həll edilməsini təmin etmək məqsədilə yaradılır.

### 12 NOYABR 1997-Cİ İL

Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və



“Günəşli” yatağının dərin hissəsinin birgə işlənməsi haqqında ARDNŞ ilə 11 xarici neft şirkəti arasında 20 sentyabr 1994-cü ildə Bakıda imzalanmış “Əsrin müqaviləsi” üzrə ilkin neft hasilatına başlandı. Bu münasibətlə “Çıraq-1” platformasında təntənəli mərasim keçirildi.

### 31 MART 1998-Cİ İL

“Bi-Pi/Statoyl” alyansının Bakıda ofisinin açılışı oldu. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və “Bi-Pi”qrupunun baş icraçı direktoru Con Braun iştirak etdilər.

### 2 SENTYABR 1998-Cİ İL

Tam modernləşdirilmiş “İstiqlal” üzən yarımdalma azma qurğusu işə salındı. Bununla əlaqədar keçirilən təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etdi.

### 29 OKTYABR 1998-Cİ İL

Türkiyə Böyük Millət Məclisində Türkiyə prezidenti Süleyman Dəmirəl , Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze , Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Özbəkistan prezidenti İslam Kərimov, habelə ABŞ-ın energetika naziri Bill Riçardson Xəzər regionunun enerji ehtiyatlarının , xüsusən Azərbaycan neftinin dünya bazarlarına çatdırılması üçün Bakı-Tbilisi-Ceyhan marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan Ankara bəyannaməsini imzaladılar. Tarixi sənəd olan bu bəyannamə Bakı-Tbilisi-Ceyhan magistral boru xəttini çəkmək əzmini bütün dünyaya bəyan etdi.

### 20 NOYABR 1998-Cİ İL

ARDNŞ-in I vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev ABŞ-da səfərdə olmuş, “Avrasiya nəqliyyat dəhlizi: əfsanə və reallıq” mövzusunda konfransda iştirak etmişdir. ABŞ Dövlət Departamentinin nümayəndəsi İlham Əliyevin Azərbaycan hökumətinin Bakıda Ceyhan marşrutuna sadiq olduğu barədə bəyanatlarını yüksək qiymətləndirmişdir. Digər rəsmilərlə görüşdə tərəflər əsas ixrac neft kəmərinin marşrutu ilə bağlı qəti qərar qəbul olunmasında mövcud çətinlikləri və qeyri-müəyyənliyi müzakirə edərək Bakı-Ceyhan boru kəmərinin perspektivliyini məmnunluqla təsdiqləmişlər.

### 17 APREL 1999-CU İL

Qərb neft kəməri və Supsa terminalı işə başladı. Bakı-Supsa neft kəməri açıldı.

### 18 NOYABR 1999-CU İL

İstanbulun “Çırağan sarayı”nda “Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə respublikalarının əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş”in, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərlərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Gürcüstan və Qazaxıstan respublikaları arasında “İstanbul bəyannaməsi”nin , Transxəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Türkmənistan arasında “Hökumətlərarası bəyannamə”nin, Azərbaycanın qaz la-



yihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında “Qarşılıqlı anlaşma memorandumu”nun imzalanması mərasimi oldu.

İmzalanmış sənədlərin həqiqətən tarixi mənası var. Bu sənədlər regionun inkişaf və təhlükəsizliyini ön plana çəkir. Bu isə dünyanın bütün qalan hissəsi üçün də əhəmiyyətlidir.

### 29 DEKABR 1999-CU İL

BTC əsas ixrac boru kəməri layihəsinin vaxtında həyata keçirilməsi məqsədilə BTC əsas ixrac boru kəmərinin tikintisi və istismara verilməsi tədbirləri haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sərəncam imzaladı.

### 29 DEKABR 1999-CU İL

Neft ehtiyatlarının istismarından ilk gəlirlərin əldə edilməyə başlaması onların səmərəli istifadəsi məsələsini gündəmə gətirdi. Məhz belə bir mexanizmin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Dövlət Neft Fondu təsis edildi.

Ölkənin neft yataqlarının xarici şirkətlər ilə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan valyuta vəsaitlərinin və digər gəlirlərin toplanması və səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrinin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək əsas məqsəddir.

Qısa müddətdə Neft Fondunun fəaliyyəti üçün münbit normativ-hüquqi baza yaradıldı. Belə ki, Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə Neft Fondu haqda əsasnamə, Neft Fondunun valyuta vəsaitinin idarə edilməsi və büdcə qaydaları təsdiq edildi.

### 22 AVQUST 2001-Cİ İL

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə qaçqınların və məcbiri köçkünlərin məskunlaşdırılması problemlərinin həlli məqsədilə Dövlət Neft Fondundan 167 milyard manat vəsaitin ayrılması qərara alındı.

### 30 AVQUST 2001-Cİ İL

“Azəri-Çıraq-Günəşli” yataqlarının tammiqyaslı işlənməsinə dair Faza-1 layihəsinə sanksiya verildi.

### 7 SENTYABR 2001-Cİ İL

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə qaçqınların və məcburi köçkünlərin məskunlaşdırılması problemlərinin həlli məqsədilə Dövlət Neft Fondundan xeyli miqdarda vəsaitin ayrılması qərara alındı.

### 27 DEKABR 2001-Cİ İL

Dövlət Neft Fondunun fəaliyyətinə ümumi nəzarətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə Neft Fondunun Müşahidə Şurası formalaşdırıldı.

### 13 MAY 2002-Cİ İL

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Biləsuvar rayonu ərazisində çadır düşərgələrində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi məqsədilə Dövlət Neft Fondundan 192 milyard manat vəsaitin ayrılması qərara alındı.

### 16 İYUL 2002-Cİ İL

Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yanında ARDNŞ Müşahidə Şurasının I iclası keçirildi.

### 30 İYUL 2002-Cİ İL

BTC əsas boru kəmərinin layihəsinin Azərbaycan Respublikasının neft strategiyasının və xarici neft şirkətləri

*(Davamı 4-cü səhifədə)*

# “Əsrin müqaviləsi”– 20 il

## “ƏSRİN MÜQAVİLƏSİ”NDƏN BTC-YƏ GEDƏN YOL

*(Əvvəli 3-cü səhifədə)*

ilə işgüzar əməkdaşlığın davam etdirilməsi, sərmayəçilərlə bağlanmış sazişlər çərçivəsində hasil edilən neftin dünya bazarlarına çıxarılması və xalqımızın sosial-iqtisadi rifahının yüksəldilməsi üçün mühüm siyasi və iqtisadi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikasının bu layihədə mənafelərini təmin etmək məqsədilə BTC əsas ixrac boru kəməri layihəsində ARDNŞ-in iştirak payının maliyyələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti fərman imzaladı.

**12 SENTYABR 2002-Cİ İL**

“Azəri-Çıraq-Günəşli” yataqlarının tammiqyaslı işlənməsinə dair Faza-2 layihəsinə sanksiya verildi.

**29 NOYABR 2002-Cİ İL**

ABƏŞ-in prezidenti Devid Vudvord Tbilisidə Gürcüstan Beynəlxalq Neft Korporasiyasının (GBNK) prezidenti Georgi Çanturiya və Təbii Ehtiyatlar Nazirliyinin “Yaşıllar” hərəkatının nümayəndələri ilə keçirilən görüşdə qəti şəkildə bəyan etdi ki, BTC əsas ixrac boru kəmərinin marşrutu dəyişməyəcəkdir. Qarşılıqlı razılıq əldə olundu.

**24 İYUL 2003-CÜ İL**

“Lider” yarımdalma üzən qazma qurğusu istifadəyə verildi.

**7 AVQUST 2003-CÜ İL**

Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev “Lider” yarımdalma üzən qazma qurğusu ilə yaxından tanış oldu.

**11 AVQUST 2003-CÜ İL**

Baş nazir İlham Əliyev BTC əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsində, ölkəmizin paytaxtı yaxınlığındakı Umbakı ərazisində aparılan tikinti işləri ilə tanış oldu.

**11 NOYABR 2003-CÜ İL**

Avropa Yenidənqurma və İnkişaf Bankı İdarə Heyəti BTC boru kəməri tikintisinin layihəsinə 250 milyon dollar kredit qərarını təsdiqlədi.

**3 FEVRAL 2004-CÜ İL**

Bakıda “Gülüstan” sarayında Bakı-Tbilisi- Ceyhan (BTC) ixrac boru kəmərinin tikintisinin maliyyələşdirilməsi üçün layihənin son maliyyələşməsinə sənədlər paketi imzalandı. Maliyyələşmə sazişləri Azərbaycan Respublikasının nümayəndələri və BTC kreditorlar qrupundan olan nümayəndələr tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə imzalandı.

**20 SENTYABR 2004-CÜ İL**

“Azəri-Çıraq- Günəşli” yataqlarının tammiqyaslı işlənməsinə dair Faza-3 layihəsinə sanksiya verildi.

**16 OKTYABR 2004-CÜ İL**

Azərbaycanın Ağstafa rayonunun Böyük Kəsik kəndində - Gürcüstanın Qardabani rayonu ilə sərhəddə Heydər Əliyev adına Bakı-Tbilisi- Ceyhan neft ixrac boru kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi mərasimi keçirildi.”Qızıl qaynaq” adlanan bu mərasimdə hər iki ölkənin dövlət




başçıları-Prezident İlham Əliyev və prezident Mixail Saakaşvili boru kəmərinin Azərbaycan və Gürcüstan hissələrini rəmzi olaraq qaynaqlayaraq birləşdirdilər.

**10 MAY 2005-Cİ İL**

Operatoru BP olan BTC Ko şirkəti Səngəçal terminalındakı BTC baş nasos stansiyasını neftlə doldurmağa başlamışdır və bu Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin neftlə doldurulmasının birinci mərhələsidir.

**25 MAY 2005-Cİ İL**

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsi istifadəyə verilmişdir.

**12 OKTYABR 2005-Cİ İL**

Heydər Əliyev adına BTC əsas ixrac boru kəmərinin Gürcüstan hissəsi istifadəyə verilmişdir. Bu münasibətlə Gürcüstanın Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisində təntənəli mərasim keçirilmişdir.

**28 MAY 2006-CI İL**

Azərbaycan nefti Türkiyənin Ceyhan terminalına çatmışdır.

**16 İYUN 2006-CI İL**

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında müqavilə imzalamışdır.

**13 İYUL 2006-CI İL**

2006-cı il iyulun 13-də müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin çox böyük uzaqgörənliklə işləyib hazırladığı və 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”-nin imzalanması ilə başlayan neft strategiyasının həyata keçirilməsində ən təntənəli, dünya əhəmiyyətli hadisələrdən biri baş verdi. Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi.

Azərbaycanın Xəzər dənizindəki sektorunda çıxarılacaq neftin Gürcüstan və Türkiyə vasitəsilə dünya bazarlarına nəqlini nəzərdə tutan bu layihənin baş tutacağına inanmayanlar, onun həyata keçməsinə mane olan qüvvələr də az deyildi. Lakin Ulu öndər Heydər Əliyevin qətiyyəti və siyasi cəsarəti, habelə Gürcüstan və Türkiyə rəhbərlərinin iradəsi, Amerika Birləşmiş Ştatları hökumətinin yaxından dəstəyi, beynəlxalq maliyyə qurumlarının köməyi sayəsində layihənin həyata keçirilməsi mümkün oldu. 2002-ci il sentyabrın 18-də Bakıda Azərbaycan, Cürcüstan və Türkiyə prezidentlərinin, ABŞ-ın energetika nazirinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyuldu. Təxminən üç il sonra, 2005-ci ilin mayında kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirildi və boru xəttinə ilk neft vuruldu. Həmin ilin oktyabrında isə kəmərin Gürcüstan hissəsi istifadəyə verildi. 2006-cı ilin mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salındı.

Səngəçal terminalından Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan 1774 kilometrlik xəttin çəkilməsinə təxminən 4 milyard dollar vəsait xərclənmişdir. Layihənin operatoru BP şirkətidir. Kəmərin tikintisi və istismarı üçün yaradılmış BTC Ko şirkətinin səhmdarları BP(30,1%), ARDNŞ (25%), Şevron (8,9%), Statoyl (8,71%), TRAO (6,53%), ENİ (5%), Total (5%), İtoçu (3,4%), İNPEX (2,5%), Konoko Fillips (2,5%) və Amerada Hess (2,36%) şirkətləri idi.

BTC kəməri ildə 50 milyon ton Azərbaycan nefti nəql etmək üçün nəzərdə tutulmuşdur. Lakin sonralar Qazaxıstanın və Türkmənistanın da BTC-yə qoşulması bu ölkələrə də neftini Aralıq dənizi vasitəsilə dünya bazarlarına çıxarmağa imkan verdi.

Bakı-Tbilisi-Ceyhan boru kəməri Azərbaycan, Gürcüstan, Türkiyə, bütövlükdə bölgə, Avropa və ümumən dünya üçün iqtisadi, siyasi baxımdan, enerji təhlükəsizliyi cəhətdən çox böyük əhəmiyyətə malik olmaqla yanaşı, Türkiyənin Aralıq dənizi boğazlarının həddən artıq yüklənməsinin də qarşısını aldı.

BTC neft və 2006-cı ilin axırlarında istifadəyə verilən Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri Azərbaycan, Gürcüstan və Türkiyəni, bu ölkələrin xalqlarını bir-birinə daha da yaxınlaşdırdı, Azərbaycanın dünyada mövqeyini möhkəmləndirdi. Bu layihələr artıq regional müstəvidən çıxıb, dünya əhəmiyyəti kəsb edir.

Ceyhan terminalının açılış mərasimində ilk söz BTC layihəsinin operatoru olan BP şirkətinin prezidenti Lord Con Brauna verildi.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin geniş və dərin məzmunlu nitqi böyük maraqla qarşılandı.

Gürcüstan Prezidenti Mixail Saakaşvilinin, Türkiyə Prezidenti Əhməd Necdət Sezərin, Baş nazir Rəcəb Tayyib Ərdoğanın, BP-Azərbaycan şirkətinin prezidenti Devid Vidvordun, ABŞ-ın energetika nazirinin müavini Kley Cellinin çıxışlarından sonra Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində iştirak edən şirkətlərin təmsilçiləri kəmərin rəmzi maketinin yanına dəvət olundular. Onlar rəmzi borularla kəmərin iki qolunu birləşdirdilər.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Baş nazir Rəcəb Tayyib Ərdoğan və BP şirkətinin prezidenti Lord Con Braun dəvət olunaraq, rəmzi borularla kəməri tam birləşdirdilər...

## ÖTƏN AY CEYHAN LİMANINDAN 2,2 MİLYON TON AZƏRBAYCAN NEFTİ DÜNYA BAZARLARINA ÇIXARILMIŞDIR

Avqust ayında BTC kəməri ilə nəql olunan Azərbaycan neftinin həcmi isə 2,4 milyon tondur. Cari ilin avqust ayı ərzində 2 milyon 214 min 981 ton Azərbaycan nefti Ceyhan limanından dünya bazarlarına çıxarılıb.

Cari ilin yanvar-avqust aylarında Ceyhan limanından ixrac olunmuş neftin həcmi isə 19 milyon 34 min 448 tondur. Ümumiyyətlə, BTC istismara verilən gündən 2014-cü il sentyabr ayının 1-nə qədər Ceyhan limanından 252 milyon 178 min 362 ton Azərbaycan nefti dünya bazarlarına yola salınmışdır.

Keçən ay BTC əsas ixrac boru kəməri vasitəsilə 2 milyon 475 min 365 ton Azərbaycan nefti nəql olunub. İlin əvvəlindən isə kəmərlə 19 milyon 570 min ton neft ötürülüb. Ümumiyyətlə, kəmər istifadəyə verilən gündən 2014-cü il sentyabr ayının 1-nə qədər BTC-yə 254 milyon 886 min 511 ton neft vurulub. Bundan başqa, cari ilin avqust ayında BTC kəməri ilə ümumilikdə 486 min 320 ton Türkmənistan və Qazaxıstan nefti nəql olunub.

# Bakı yelkənli qayıqların 470 Olimpiya sinfi üzrə 2016-cı ildə keçiriləcək dünya çempionatına ev sahibliyi edəcək



**Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Ölkəmizdə bu sahənin daha da inkişaf etdirilməsi istiqamətində görülən tədbirlər nəticəsində Azərbaycan beynəlxalq əhəmiyyətli idman yarışlarının keçirilməsi üçün əlverişli məkana çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strategiyaya uyğun olaraq bu gün idman ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.**

Azərbaycan Yelkənli İdman Federasiyasının mətbuat xidmətindən AzərTAc-a bildiriblər ki, Yunanıstanın Afina şəhərində yelkənli qayıqların 470 Olimpiya sinfi üzrə Beynəlxalq Assosiasiyanın Baş Assambleyası keçirilib. Assambleya çərçivəsində yelkənli qayıqların 470 Olimpiya sinfi üzrə 2016-cı ildə keçiriləcək dünya çempionatına ev sahibliyi edəcək ölkənin müəyyən edilməsi məqsədilə səsvermə keçirilib.

Assambleyada 254 səs çoxluğu ilə Azərbaycanın yelkənli qayıqların 470 Olimpiya sinfi üzrə 2016-cı ildə keçiriləcək dünya çempionatına ev sahibliyi etməsi barədə qərar qəbul olunub.

Afina şəhərində keçirilmiş Assambleya çərçivəsində Azərbaycan Yelkənli İdman Federasiyasının nümayəndələri təqdimat keçiriblər.

Mötəbər beynəlxalq tədbirlərin keçirilməsində böyük təcrübəsi olan Vətənimizin paytaxtı, daim yenilən, müasirləşən və xüsusilə də küləklər şəhəri olan Bakının yelkənli qayıqların 470 Olimpiya sinfi üzrə 2016-cı ildə keçiriləcək dünya çempionatına ev sahibliyi etməsinin doğru seçim olduğu Beynəlxalq Yelkənli İdman Federasiyasının nümayəndələri və Assambleyanın iştirakçıları tərəfindən xüsusilə vurğulanıb.



Yelkənli qayıqların 470 Olimpiya sinfi iki əllə idarə olunan yarış qayıqlarıdır. Bu sinfin adı onun ümumi uzunluğunun santimetrlə ölçüsündən yaranıb (qayıq 4.70 metr uzunluğundadır). Bu qayıqlar sürətli üzmə qabiliyyətinə malikdirlər. 470 Olimpiya sinfinə aid olan həmin qayıqların çəkisinə nisbətən iri həcmli yelkənləri vardır ki, bu da qayıqların avtomobillərlə müqayisədə sanki dəniz avtomobili kimi dənizdə yüksək sürətlə və manevrlə idarə olunmasına şərait yaradır.

Bu idman növü 1976-cı ildən Olimpiya sinfinə daxil edilmiş 10 yelkənli qayıqlar üzrə idman növündən biridir. Üç yüz nəfərdən çox idmançının iştirak etdiyi bu idman növü üzrə yarışlar dənizdə keçirilən ən böyük yarışlardan biri hesab olunur.

Ölkəmizin belə bir beynəlxalq səviyyəli, mötəbər yarışa ev sahibliyi etməsinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən böyük zəhmət və qayğı ilə respublikamızın beynəlxalq idman aləmində formalaşdırılmış nüfuzunun daha da artırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin tərkib hissəsi olması qürur hissi ilə vurğulanmalıdır.

# “DÜŞMƏNİ ƏZMƏK ƏN BÖYÜK LƏZZƏTDİR”

## *“Bütün dövrlərin dahisi” və “Millətlər atası” İ.V.Stalin belə deyirdi*

*(Əvvəli qəzetimizin ötən sayında)*

### BEŞİNCİ GÜMAN

Tuxaçevski, Yakir, Uboreviç, Eydeman, Feldman, Primakov, Putna məhkəmədə özlərini “günahkar” saydılar və guya alman kəşfiyyatı ilə əməkdaşlıq etdiklərini boyunlarına aldılar. Terror ərəfəsində Stalinin imzası ilə ordunu təmizləmək barədə məxfi göstəriş verildi və bu göstərişə qalanları, o cümlədən Voroşilov, Mikoyan, Xruşşov, Budyonnu da qol çəkdilər.

Çox sərkərdələr təhqirə dözməyib intihar edirdi. Qəribədir ki, “günahkarlar” və “hakimlər” bir-birini çox gözəl tanıyırdılar. Tutulanların arasında Yakir ən cavanı idi. Əczaçı oğlu olan Yakir dünyada “ən çox sevdiyi, uca tutduğu insana” məktub yazmışdı: ”Doğma, canımdan çox istədiyim yoldaş Stalin! Mən Sizə, partiyaya, ölkəyə, kommunizmin qələbəsinə böyük inamla ölürəm”. Yakirin məktubunu Stalin oxumuş və küncündə belə bir dərkənar qoymuşdu: ”Tanış əclaf və fahişə. Stalin”.

Deyilənə görə, Stalin, Tuxaçevski başda olmaqla o birilərinin də alman kəşfiyyatı ilə əməkdaşlığını təsdiq edən sənədləri almanların özündən alıbmış. Halbuki admiral Kanarisin abverində və Kaltenbrunnerin idarəsində Qızıl Ordunu zəiflətmək üçün bu gedişi düşünüb tapmışdılar. Guya “alman agentlərini” aşkara çıxaran həmin sənədlər o vaxt Almaniyanın hərbi nazirliyində baş verən yanğından sonra ələ keçibmiş və Çexoslovakiyanın prezidenti Beneş vasitəsilə Stalinə çatdırılıbmış. Belə bir versiya demək olar ki, hamı üçün əlverişli idi. Stalin orduda “təmizləmə” adı altında terroru başlayırdı, almanlar isə Sovet İttifaqı üzərinə hücum ərəfəsində düşməni zəif saldıqlarına görə sevinirdilər, Yejevon adamları həmin sənədləri gizli yolla Almaniyadan o vaxtın pulu ilə 3 milyon rubla almışdılar.



Qəribədir ki, dünən Tuxaçevskini mühakimə edənlər həmin məhkəmədən bir neçə ay sonra özləri günahkar sayılıb güllələndilər. Bunların arasında Blyüxer, Alksnis, Belov, Dıbenko da vardı. Həbsxanada Blyüxerin vurub gözünü çıxarmışdılar. Onu o qədər döymüşdülər ki, tanımaq olmurdu. Yaraşıqlı matros olan Dıbenkoya da gecəgündüz işgəncə verilirdi.




1938-ci ilin sonunda Voroşilov hərbi şuranın iclasında belə hesabat verirdi: ”1937-1938-ci illər ərzində biz Qızıl Ordudan 4 mindən çox adamı “təmizləmişik”. 100 min hərbçinin vəzifəsi dəyişdirilib. Hərbi şuranın əvvəlki üzvlərindən yalnız 10 nəfər saxlanılıb.”

İl ərzində ordunun komandir heyətindən 46 faizi məhv edilmişdi.

1938-ci il dekabrın 12-si bu baxımdan “rekord” nəticə göstərilib: Stalin və Molotov bir gündə 3167 adamın qətlinə hökm veriblər.

### ALTINCI GÜMAN: ƏN BAŞLICASI

1937-ci il terroru olmaya bilməzdi. Çünki terror dövlət siyasətinə çevrilmişdi. Cəmiyyətin özülündə qorxu dayanırdı.

Sovet hökumətinin iqtisadi təməlini qoyan adamın fikrinə diqqət yetirək: ”Proletar məcburiyyətinin hər bir şəkli, güllələnmə də daxil olmaqla, kapitalist dövrünün məhsulu olan insandan kommunist əqidəli insan yaratmaq üçün bütün formalar məqbuldu”. Bunu “inqilabın qızıl körpəsi”adlandırılan Buxarin yazıb. (Bu “qızıl körpə” həbsxanada Stalinə 43 məktub yazıb göndərib. Bütün məktublarda da “millətlər atasına”, partiyaya, kommunizmə sədaqətini bildirib).



“Çörək payını mümkün qədər azaltmaq. Minlərlə adam ölsə də, fərqi yoxdur, ölkəni xilas etməliyik. Lenin”.

“Sərgərdan Rusiya ilə birdəfəlik haqq-hesabı çürütməliyik. Əmək orduları yaratmalıyıq. Çəkilən əməyin müqabilində bir parça çörək verilməlidir. Tabe olmayanlar həbs olunmalı, ya da güllələnməlidir. Biz yeri gələndə inqilabın dəqiq karastısı olmalıyıq . Trotski” (Məhz həmin karastı ilə, yəni balta ilə terrorçu Merkader bu sözlərin müəllifini Meksikada qətlə yetirdi).



Lenin Kamenevə yazırdı: “ Biz terrora dönə-dönə qayıtmalıyıq. Daxilən boyun əyməyən rus əhalisinin 90 faizini məhv etməliyik. Dünya inqilabının qələbəsinə 10 faiz də bəs edər.”

Terror yolu Lenin və ondan sonra gələn bütün siyasətçilər üçün çox rahat, əlverişli bir ideya oldu: hakimiyyətə can atan hər bir kəs terroru özünə köməkçi seçdi.

Stalin də bunu çox gözəl başa düşürdü...

**“DƏNİZ”**

# OKEANDA MÜƏMMALI SƏS

**Bir müddət öncə Sakit okeanda tədqiqatçılar naməlum səs qeydə alıblar.**

Mütəxəssislər dərhal Milli Okean və Atmosfer Administrasiyasına sorğu göndəriblər və ekspertlər səsin həqiqətən də eşidildiyini bildiriblər. Onların məlumatına görə, heç kəs bu səsin haradan gəldiyini bilmir.



Ekspertlər bildiriblər ki, artıq 20 ildir ki, bu səs müxtəlif gəmilərdə, su qayıqlarında eşidilir.

Bir çox müəssisələr bu sirrin şifrəsini açmaq istəyiblər, lakin müəmmalı səs hələ də təbiətin sirri olaraq qalır.

Məlum olub ki, səs 20 saniyədən bir suyun dərinliklərindən alçaq səslə eşidilir. Lakin səsin gücü o qədər böyük olur ki, Sakit okean boyunca yayılır. Yaz aylarında səs daha aydın olur və tez-tez eşitmək mümkündür. Bizə verilən məlumatlara görə, bu naməlum səs ilk dəfə 1991-ci ildə eşidilib. O illərlə müqayisədə səsin eşidilmə gücü zəifləyib, amma buna baxmayaraq, səs exolokator cihazında aydın şəkildə qeyd olunur.

**Yandex.ru**

# "MİSTRAL"IN TƏHVİL VERİLMƏSİNİ TƏXİRƏ SALMAQ İSTƏYİRLƏR

**Fransa ilə Rusiya arasında hərbi münasibətlər ciddi sınaq qarşısındadır. Prezident Fransua Ollandın "Mistral" hərbi gəmisinin şimal qonşumuza təhvil verilməsini qeyri-müəyyən müddətə təxirə salması belə düşünməyə əsas verir. Rəsmi Paris belə bir qərar qəbul etməsini Rusiyanın Ukraynada sabitliyin bərpa olunması istiqamətində yetərli addımlar atmaması ilə izah edir. İttihamları qəbul etməyən rəsmi Moskva fransızları müqavilə şərtlərini yerinə yetirməyə çağırır, əks təqdirdə, beynəlxalq məhkəmələrə üz tutacağını bildirir. Qərb isə Fransa hökumətinin addımını alqışlayır.**




"Mistral" helikopter daşımaq üçün hazırlanmış hərbi gəmidir. Universal xüsusiyyətlərə malik olan gəmi dörd tapşırıq yerinə yetirməyə imkan verir. Yəni, helikopterləri qəbul edir, hərbi bölmələri sahilə çıxarır, hərbi komandanlığın mərkəzi olur və üzən hospital kimi fəaliyyət göstərir. 21 min ton subasımı olan "Mistral" gəmisinin uzunluğu 210 metrə bərabərdir. Aviasiya qrupunun tərkibində 16 döyüş helikopterinin olacağı bildirilən gəmiyə 40 tank və ya 70 ədəd hərbi avtomobil yükləmək mümkündür. Dəyəri 1,2 milyard avro olan hərbi gəmi barədə hökumətlərarası müqavilənin 2011-ci ildə imzalandığı vurğulanır. "Mistral" Fransanın DCNS Dövlət Korporasiyası tərəfindən hazırlanır. Rusiya Federasiyasının iki belə hərbi gəmi sifariş etdiyi bildirilir.

Qərb mətbuatı ilk gəminin cari ilin oktyabr ayında şimal qonşumuza təhvil veriləcəyini yazır. Lakin sentyabrın 4-də məlum oldu ki, Fransa "Mistral"ı təhvil verməyə tələsmir. Rəsmi Paris belə bir qərar qəbul etməsini Rusiyanın Ukraynada sabitliyin bərpa olunması istiqamətində yetərli addımlar atmaması ilə izah edir. Fransa hökuməti bildirir ki, Ukraynada vəziyyət ciddidir və Rusiyanın Ukraynanın şərqində atdığı addımlar Avropada təhlükəsizliyin əsas prinsiplərinə ziddir. Maraqlıdır ki, bu yaxınlarda prezident Fransua Olland jurnalistlərə açıqlamasında "Mistral"ın vaxtında təhvil veriləcəyini bildirmişdi. Onun sözlərinə görə, gəminin verilməyəcəyi təqdirdə Rusiya tərəfinə böyük məbləğdə cərimə ödəməyə məcbur olacaqlar. Fransanın Xarici İşlər Nazirliyi də sentyabrın 1-də vurğulamışdı ki, hərbi gəmi ilə bağlı addımlar müqaviləyə uyğun atılacaq. Amma son iki-üç gün ərzində rəsmi Paris mövqeyində kəskin dönüş etdi.

Qərb mətbuatı Fransa liderinin fikrini dəyişməsini NATO-dakı əməkdaşlarının göstərdikləri güclü təzyiqlərlə əlaqələndirir. Doğrudur, Şimali Atlantika bloku belə bir qərarın qəbul edilməsində heç bir rol oynamadığını bəyan etməyə tələsdi. Bununla belə, Rusiya politoloqları Fransanın ABŞ-ın və Avropanın bir sıra ölkələrinin, xüsusilə də Almaniyanın güclü təzyiqi ilə üzləşdiyini iddia edirlər. Fransanın bir sıra mütəxəssisləri də təzyiq məsələlərində rusiyalı həmkarları ilə razılaşırlar. Məsələn, Arno Dyubyenin sözlərinə görə, Fransa son belə təzyiqə 1995-ci ildə sabiq prezident Jak Şirak nüvə sınaqlarını bərpa etdiyi zaman qarşılaşmışdı. Fransalı mütəxəssisləri təkcə müqavilə şərtlərinin pozulmasına görə ödəyəcəkləri cərimənin məbləği narahat etmir. Siyasi analitiklər iddia edirlər ki, Rusiya tərəfinə "Mistral" hərbi gəmisini verməməklə Fransa silah bazarında etibarlı satıcı imicini korlaya bilər. Məlumdur ki, Fransa Hindistana 126 ədəd "Rafael" qırıcı təyyarəsi satmağı planlaşdırır. Belə iddia olunur ki, "Mistral" gəmisini sifarişçiyə çatdırmamaqla Fransa etibarlı satıcı olduğunu şübhə altına ala və Hindistanla belə bir sərfəli sifarişi əldən verə bilər. Amma Qərbin hərbi-siyasi dairələri rəsmi Parisi dəstəkləyir. ABŞ və müttəfiqləri hesab edirlər ki, prezident Olland vəziyyətə uyğun hərəkət edir və belə bir çoxfunksiyalı hərbi gəminin Rusiyaya təhvil verilməsi Avropanın təhlükəsizliyi baxımından yanlış addım ola bilər.

**S. MƏMMƏDOV**

# SUALTI QAYIQLAR ÜÇÜN QEYRİ-ADİ SÜRƏT

**Çinli tədqiqatçılar bildiriblər ki, sualtı qayıqların sürətini saatda 1200 kilometrə qaldıra bilərlər, bu isə adi kommersiya təyyarələrinin sürəti ilə müqayisə oluna bilər. İndi onlar əsasını superkavitasiya təşkil edən sualtı qayığın hazırlanması ilə məşğuldurlar. Alimlər sualtı qayığın ətrafında qovuq hazırlamaq istəyirlər ki, bu da su ilə hərəkət üzrə müqaviməti azaltmağa kömək edəcək və bununla da onun sürətini dəfələrlə artırmağa imkan verəcək. Qovuğun əmələ gəlməsi üçün sualtı qayığın burun hissəsi və qazdan istifadə olunacaq.**



Buna baxmayaraq, mütəxəssislər bu texnologiyada problem görürlər. Onlar bildirirlər ki, qovuğun əmələ gəlməsi üçün heç olmasa saatda 80 kilometr sürət lazımdır (hər sualtı qayıq isə bu sürəti yığa bilmir). Bu səbəbdən də, onların sözlərinə görə, çinli alimlərdə heç nə alınmayacaq. Hələlik isə, sualtı qayığı lazımı sürətə çatdıra bilən heç bir sualtı raket yoxdur. Amma, deyəsən, çinlilər artıq hər şeyi nəzərə alıblar. Bu günlərdə problemi həll edə bilən maye membran hazırlayıblar. O, fasiləsiz olaraq toza çevrilərək ön müqaviməti aşağı sala və sualtı qayığa lazımi sürəti götürməyə imkan verə bilər.

Sualtı qayıq barədə bundan artıq hələlik heç bir məlumat yoxdur. Maraqlısı budur ki, superkavitasiyadan hələ ötən əsrin 60-70-ci illərində istifadə olunub. Sovet alimləri bu texnologiyanı elə həmin qovuğu torpedalar ətrafında əmələ gətirərək yerinə yetiriblər. Onlar qovuq vasitəsilə saatda 400 kilometr sürətlə hərəkət etsələr də, cəmi bir neçə kilometr irəliləyə bilib. Ona görə də bu layihədən imtina ediblər.

# Spirtli içkilərə aludə olan xalqlar

**Dünyada hər il içki istehlakı artmaqda davam edir. İnsan sağlamlığına zərəri baxımından sübuta yetirilmiş bu fakt belə içkiyə qurşanan insanların sayının azalmasına əsaslı təsir göstərə bilmir. Dünya Səhiyyə Təşkilatı il ərzində planetdə baş verən 2,5 milyon ölüm faktının (ümumi ölümlərin 4 faizi) həddən artıq spirtli içki qəbul olunması səbəbindən baş verdiyini müəyyən edib.**



Gündəlik həyatın, xüsusən, əlamətdar hadisələrin ayrılmaz elementinə çevrilən spirtli içkilər bir çox xalqların adət-ənənələrinin ayrılmaz tərkib hissəsi, bəzi xalqlar üçün isə dini baxımdan "şeytan əməli" hesab olunur. Alkoqollu içkilərin istehlakı ilə bağlı BMT nəzdindəki Dünya Səhiyyə Təşkilatı (DST) sonuncu dəfə 2010-cu ildə geniş araşdırma aparıb. Dünyada adambaşına ən çox içki içən xalqların sayı müəyyən olunub. Siyahı bir çox gözlənilməzlikləri ilə yadda qalıb. Milli.az modern.az-a istinadən həmin siyahını təqdim edir.

**Moldova:**

DST-ün araşdırmalarına görə dünyada ən çox spirtli içki içən xalq moldovanlardır. Avropanın şərqində yerləşən, daha çox çaxır məhsulları ilə tanınan Moldovada 15 yaşından yuxarı hər bir vətəndaş il ərzində 18,22 litr spirtli içki qəbul edir. Ən çox içilən içkilərə gəldikdə isə çaxır 4,67, pivə 4,57 və digər alkoqollu içkilər 4,42 litr təşkil edir.

**Çexiya:**

Mərkəzi Avropa regionunun sakinləri sayılan çexlər isə dünyada 2-ci içkisevər xalq hesab olunur. Tarixən pivə istehsalı ilə məşhur olan bu xalq il ərzində adambaşına 16,45 litr spirtli içki qəbul edir. Bu içkilərdən pivə 8,5, çaxır 2,33, digər alkoqollu içkilər isə 3,59 litr təşkil edir.

**Macarıstan:**

10 milyon əhalisi olan bu Avropa ölkəsi də əhalisinin içkiyə olan aludəçiliyi ilə seçilir. Macarlar ildə 16,27 l içki içirlər. Bunun 4,42 litri pivə, 4,94 litri çaxır və 3,2 litri isə digər spirtli içkilər təşkil edir.

**Rusiya:**

İçki içmə potensialı ilə dünyada əfsanəyə çevrilən şimal qonşumuz Rusiya Dünya Səhiyyə Təşkilatının siyahısında 4-cü pilləni tutmaqla kifayətlənmişdi. Orta statistik Rusiya vətəndaşı ildə 15,75 litr içki qəbul edir. Bunun 3,65 litri pivə, 0,1 litri çaxır və 6,88 litri isə digər alkoqollu içkilər (əsasən, araq) təşkil edir.

**Ukrayna:**

Rusiyanın qərb qonşusu Ukrayna da öz slavyan qardaşından geri qalmır. Ukraynalıların içki sərfiyyatı il ərzində 2,69 litri pivədən, 0,58 litri çaxırdan və 5,21 litri araqdan ibarət olmaqla 15,57 litr təşkil edir.

**Estoniya:**

Rusiyanın Avropada həmsərhəd olduğu Estoniya da dünyanın ən çox içki içən 10 xalqından biridir. Ukraynalılardan 0,1 litr daha az spirtli içki içən estonlar ildə 15,56 litr ilə kifayətlənirlər. Bunun 5,53 litri pivə, 1,09 litri çaxırdan və 9,19 litri araq daxil olmaqla digər spirtli içkilərdən ibarətdir.

**Andora:**

Cəmi 76 min əhalisi olan Andora dünyada içki istehlakına görə qabaqcıl yerlərdən birində qərar tutub. Andoralı ildə 15,54 litr içki qəbul edir ki, bu həcmin 3,93-ü pivə, 5,69-u çaxır və 3,14-ü isə digər spirtli içkilərdən ibarətdir.

**Rumıniya:**

Daha bir Şərqi Avropa ölkəsi Rumıniya adambaşına 15,29 litr içki içməklə dünyada vətəndaşları ən çox içki qəbul edən 8-ci xalq kimi qeyd olunub. Bu içki sərfiyyatının 4,07 litri pivə, 2,33 litri çaxır və 4,14 litri isə digər alkoqollu içkilərdən ibarətdir.

**Sloveniya:**

Yuxarıdakı ölkələrdən yalnız Macarıstanla qonşu olan Sloveniya il ərzində dünyada ən çox içən 9-cu xalq kimi göstərilib. Statistik hesablamalara görə, adambaşına 15 yaşını bitirmiş sloven 15,19 litr alkoqollu içki qəbul edir. Ən çox içilən içkilər arasında 4,1 litr pivə, 5,1 litr çaxır və 1,33 litr digər içkilər yer alır.

**Belarus:**

Daha bir Şərqi Avropa xalqı belaruslar içki sərfiyyatının həcminə görə dünyanın ən çox içən 10-cu xalqıdır. "Onluğu" qapadan belaruslar il ərzində adambaşına 15,14 litr içki qəbul edirlər. Bunun 1,84 litri pivə, 0,8 litri çaxır və 4,08 litr isə əsasən, araqdan ibarət olan digər içki məhsullarıdır.

Yəmən dünyada ən az içki qəbul edən sakinlərə malikdir. Bu ölkədə adambaşına bir neçə milliqram spirtli içki düşür. Az içki qəbul edən digər xalqlar kimi küveytliləri, pakistanlıları, somalililəri və liviyalıları misal çəkmək olar.

*İlham MƏMMƏDOV*

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Внутренний порок груза — Yükün daxili qüsuru
### INHERENT VICE

Скрытый дефект грузов, который может вызвать их порчу. Перевозчик не несет ответственности за убытки, возникшие вследствие внутреннего порока груза. Если порча груза произошла из-за внутренних пороков груза, то страховщик не выплачивает страховой премии.

Yüklərin korlanmasına səbəb ola biləcək gizli qüsur. Daşıyıcı yükün daxili qüsuru nəticəsində yaranan zərərlərə görə məsuliyyət daşımır. Yükün xarab olması onun daxili qüsuruna görə baş veribsə, onda sığortaçı sığorta mükafatı ödəmir.

### Воздушно-морская перевозка — Hava-dəniz daşımaları
### MUTUAL INSURANCE

Перевозка грузов с использованием воздушного и морского транспорта. Обычно оформляются два документа: накладная для воздушной транспортировки и коносамент для доставки груза морем.

Hava və dəniz nəqliyyatından istifadə etməklə yüklərin daşınması. Adətən iki sənəd rəsmiləşdirilir: hava ilə daşınacaq yük üçün qaimə və yükün dənizlə daşınması üçün konosament.

### "Война книг" — «Kitablar müharibəsi»
### WAR OF BOOKS

Отражение в доктрине Международного морского права борьбы между государствами-сторонниками открытого моря и государствами, претендовавшими на установление своего суверенитета над отдельными морями и даже океанами. В этой борьбе участвовали видные юристы ряда стран. Центральными фигурами "Войны книг" были наиболее выдающиеся представители ее двух основных направлений: Г. Гроций и Дж. Сельден, в работах которых дано наиболее развернутое обоснование соответствующих концепций. Взгляды других участников "Войны книг" малоизвестны. Как на практике, так и в теории решение спора между двумя направлениями наметилось на основе ограничения власти прибрежного государства узкой полосой прилежащего территориального моря. Победа идей сторонников концепций открытого моря отражала победу этого принципа в самой практике межгосударственных отношений и способствовала его закреплению в качестве основополагающей нормы международного морского права.

Beynəlxalq dəniz hüququ doktrinasında açıq dəniz tərəfdən olan dövlətlərlə ayrı-ayrı dənizlər və hətta okeanlar üzərində öz suverenliyini müəyyənləşdirməyə iddia edən dövlətlər arasında mübarizənin əks olunması. Bu mübarizədə bir sıra ölkələrin görkəmli hüquqşünasları iştirak etmişlər. «Kitablar müharibəsi»nin iki əsas istiqamətinin aşağıdakı görkəmli nümayəndələri onun mərkəzi fiqurları olmuşdur: elmi işlərində müvafiq konsepsiyaların xüsusən geniş şəkildə əsaslandırılmasını vermiş Q. Qrotsi və C. Selden. «Kitablar müharibəsi»nin digər iştirakçılarının bu məsələyə baxışları az məlumdur. İstər təcrübədə, istərsə də nəzəriyyədə iki istiqamət arasındakı mübahisənin həlli sahilyanı dövlətin hakim olduğu ərazi dənizinin ensiz zolağı ilə məhdudlaşdırılması əsasında həyata keçirilir. «Açıq dəniz konsepsiyası» tərəfdarlarının ideyasının qalib gəlməsi, bu prinsipin məhz dövlətlərarası münasibətlərin təcrübəsində üstünlük qazanmasına və beynəlxalq dəniz hüququnun əsas norması kimi onun möhkəmlənməsinə kömək etmişdir.

### Вольные гавани — Sərbəst havanlar
### FREE PORTS

Части морских торговых портов, в которых разрешен беспошлинный ввоз и вывоз товаров, их хранение и переработка. Товары, вывозимые за пределы вольной гавани на территорию государства, которому принадлежат вольные гавани, облагаются соответствующими таможенными пошлинами. Порядок функционирования вольной гавани регламентируется национальным законодательством.

Dəniz ticarət limanlarının malların rüsumsuz daşınıb gətirilməsinə və aparılmasına, onların saxlanmasına və emalına icazənin verildiyi hissələri. Sərbəst havan hüdudlarından kənara - sərbəst havanların məxsus olduğu dövlətin ərazisinə daşınan mallara müvafiq gömrük rüsumları qoyulur. Sərbəst havanın fəaliyyət göstərməsi qaydaları milli qanunvericiliklə tənzimlənir.

### Время очереди — Növbə vaxtı
### FREE PORTS

Время ожидания постановки к причалу с момента прибытия судна до момента получения указания следовать к нему. В тех случаях, когда чартер содержит условие "в порядке очереди" (in regular turn), время очереди не засчитывается в сталийное время. Если же в чартере указано "без очереди" (free of turn), то счет сталийного времени начинается с момента прибытия судна и подачи нотиса о готовности к производству грузовых операций. Если к моменту получения указания о постановке к причалу судно окажется не готовым к производству грузовых операций, оно теряет очередь и фрахтователь обычно за это ответственность не несет.

Körpüyə yan almaq üçün gəminin gözlədiyi vaxt. Gəminin gəldiyi andan körpüyə doğru getmək göstərişini aldığı ana qədər davam edir. «Növbə qaydasında» (in regular turn) şərtinin carterdə olduğu hallarda növbə vaxtı staliya vaxtının hesabına salınmır. Lakin çarterdə «növbəsiz» (free of turn) şərti qeyd olunarsa, staliya vaxtının hesablanması gəminin gəldiyi və yük əməliyyatlarının icrasına hazır olması barədə notisin verildiyi andan başlayır. Gəmi körpüyə yan almaq barədə göstəriş aldığı anda yük əməliyyatlarının aparılmasına hazır olmazsa, öz növbəsini itirir və fraxtedən adətən buna görə məsuliyyət daşımır.

### Время, потраченное в ожидании причала — Körpü gözləməyə sərf edilmiş vaxt
### TIME LOST WAITING FOR BEARTH TO COUNT

"Время, потерянное в ожидании причала, считается временем погрузки/выгрузки" или "считается сталией" (time lost waiting for bearth to count as loading/discharhing time or as laytime). Это означает, что если основная причина, по которой нотис о готовности не может быть дан, заключается в отсутствии доступного для судна причала для погрузки/выгрузки, то сталийное время исчисляется с начала ожидания судном причала и продолжается - если только не истечет ранее - до тех пор, пока это ожидание не окончится. Исключения из сталии применяются ко времени ожидания, как если бы судно было у причала, предназначенного для погрузки/выгрузки, при условии, что судно еще не находится на простое. Когда ожидание оканчивается, счет времени прекращается и возобновляется тогда, когда судно подходит к причалу, предназначенному для погрузки/выгрузки с соблюдением условия подачи нотиса о готовности, поскольку это предусмотрено в чартере, если только судно не находится уже к этому времени на простое.

Yükləmə/boşaltma vaxtı və ya staliya vaxtı. Bu o deməkdir ki, hazırolma barədə notisin verilməməsinin əsas səbəbi gəminin yüklənib/boşaldılması üçün mümkün körpünün olmamasından irəli gəlirsə, staliya vaxtı gəminin körpü gözlədiyi zamandan hesablanmağa başlayır və həmin gözləmə başa çatana qədər, əgər staliya vaxtı erkən qurtarmazsa, davam edir. Staliyadan istisnalar gözləmə vaxtına tətbiq edilir, bu şərtlə ki, hələ boşdayanmada olmayan gəmi yüklənib/boşaldılmaq üçün nəzərdə tutulmuş körpüdə dayanmış olsun. Gözləmə qurtaranda vaxtın hesablanması dayandırılır və yenidən o zaman bərpa edilir ki, gəmi, əgər artıq bu vaxta boşdayanmada deyilsə, çarterlə nəzərdə tutulmuş hazırolma barədə notisin verilməsi şərtinə riayət etməklə yük əməliyyatları üçün təyin olunmuş körpüyə yan alır.

### Все виды риска — Riskin bütün növləri
### ALL RISKS

Условие страхования, под которое, как правило, подпадают грузы, перевозка которых особенно часто сопряжена с повреждением, порчей, утратой, расхищением и др. Все виды риска - это самая надежная (из всех рисков) и дорогостоящая страховка товаров на весь период транспортировки "от двери до двери", т.е. с момента отгрузки со склада продавца до прибытия на склад покупателя.

Sığorta şərti. Onun təsir dairəsinə, bir qayda olaraq, daşınması zamanı tez-tez zədələnmə, korlanma, itki, oğurlanma və s. müşahidə olunan yüklər aiddir. Riskin bütün növləri - bu, malların satıcının anbarından yola salındığı andan alıcının anbarına çatdırılanadək, yəni «qapıdan-qapıyadək» nəqletmənin bütün dövründə ən etibarlı (bütün risklərdən) və bahalı sığortalanmasıdır.

### Всегда на плаву — Daim qrunta toxunmadan
### ALWAYS AFLOAT

Условие чартера, в соответствии с которым фрахтователь обязан предоставить судну такое место для погрузки/выгрузки, где оно могло бы стоять, всегда имея под килем достаточный запас воды, то есть не касаться грунта.

Carter şərti. Bu şərtə müvafiq olaraq fraxtedən gəmiyə yüklənmək/boşaldılmaq üçün elə yer verməlidir ki, gəmi kilinin altında həmişə kifayət qədər su ehtiyatı olmaqla orada dayana bilsin, yəni qrunta toxunmasın.

### Все сбереженное время — Qənaət edilmiş vaxt
### ALL TIME SAVED

Время, сбереженное для судна благодаря окончанию погрузки/выгрузки до истечения сталийного времени, включая периоды, исключенные из сталии.

Staliyadan çıxardan dövrləri də daxil etməklə, staliya vaxtı qurtarmamış yükləmə/boşaltma əməliyyatlarının başa çatdırılması sayəsində gəmi üçün qənaət edilmiş vaxt.

### Выбрасывание груза за борт — Yükün bortdan kənara atılması
### JETTISON

Выбрасывание части груза, произведенное намеренно и разумно с целью спасения судна, груза и фрахта от общей для них опасности. Выброшенный в таких случаях груз является убытком, подлежащим распределению по общей аварии.

Gəmini, yükü və fraxtı onlar üçün ümumi olan təhlükədən xilas etmək məqsədi ilə yükün bir hissəsinin bilərəkdən və ağlabatanlıqla atılması. Belə hallarda atılmış yük ümumi qəza üzrə bölüşdürülməli olan zərərdir.

### Выделение средств по счету — Təxsis hesabı
### JETTISON

Это ассигнование, выделение средств по счету. Начисление из прибыли компании по дивидендам, резервному фонду, пенсионному фонду, ежегодным премиям и т.п.

Bu, vəsaitin təxsis olunması, hesab üzrə ayrılmasıdır. Şirkətin dividendlər, ehtiyat fondu, pensiya fondu, illik mükafatlar və s. üzrə mənfəətindən hesablanmadır.

*(Davamı var)*

## RUSİYA HDQ-NİN XƏZƏR DONANMASININ GƏMİLƏRİ AZƏRBAYCANA GƏLƏCƏK

Rusiya Hərbi Dəniz Qüvvələrinin (HDQ) Xəzər Donanmasının "Dağıstan" və "Qrad Sviyajsk" raket gəmiləri oktyabrda Qazaxıstan HDQ ilə birgə təlimlər keçirəcək və üç Xəzəryanı ölkənin - Azərbaycan, İran və Qazaxıstanın limanlarına yan alacaqdır. Bu barədə İTAR-TASS Rusiyanın Cənub Hərbi Dairəsinin mətbuat xidmətinə istinadən xəbər verir.

Məlumata görə, gəmilər oktyabrın əvvəlində Xəzər dənizinə hərbi xidmətə çıxacaqlar: "Dənizçilər 20 gün ərzində hərbi hazırlıqdan əlavə, beynəlxalq əməkdaşlığın inkişafı və möhkəmləndirilməsi məqsədilə 3 Xəzəryanı dövlətin limanlarına dost səfərləri etməyi planlaşdırırlar."



Aktau limanına səfər zamanı Qazaxıstan HDQ ilə birgə təlimlərin keçirilməsi də planlaşdırılır. Gəmilər səfər ərzində Xəzər dənizində 1500 mildən artıq məsafə qət edəcəklər.

## YAPON DƏNİZİNDƏ TEPLOXOD QƏZAYA UĞRAYIB

Yapon dənizində Kamboca bayrağı altında üzən "Polayn" teploxodu batıb. APA-nın verdiyi məlumata görə, hadisə güclü fırtına nəticəsində baş verib.

Heyəti Rusiya və Ukrayna vətəndaşlarından ibarət teploxod Primorsk diyarındakı Plastun limanından Çinə yollanırmış.

İlkin məlumata görə, qəza zamanı gəmidə olan 10 heyət üzvü xilasedici sallara keçə bilib. Bir müddət sonra dənizçilər hadisə yerinə gələn gəmilərin köməyi ilə xilas edilib.

## YARIZARAFAT, YARIGERÇƏK

- Pis adamların bəxti həmişə gətirir. Belə ki, onlar həmişə yaxşı adamlara pislik edirlər. Deməli, qarşılarına da həmişə yaxşı adamlar çıxır.
- Dünyanın düz vaxtı nə vaxt olacaq görəsən?
- Gördüklərümdən belə qənaətə gəlmək olar ki, dünya götür yox, gördün götür dünyasıdır.
- Yaxşı ki, öz işim var. Yoxsa adamı gör nə qədər işə salan var.
- Cəza çəkim e... Heç olmasa bilim kimin əməllərinin cəzasını çəkirəm.
- Mən elə bilirdim ki, böyüyəndə ancaq şeir yazacağam. Bu həyat şeirdən başqa mənə nə desən yazdırır.
- Nə gəldi, mənim ayağıma yazdıqları üçün ayaqlarım teztez ağrıyır?
- Ürəkləri balaca adamlara heç balaca imkan da vermək olmaz. Çünki onlar dərhal özlərini birtəhər aparırlar.
- Həyatın gözəlliyindən başqa hər şey görmüşəm.
- Uşaqlıqda Pifaqordan az bilməyəndən böyüyəndə Pifaqor çıxmamasının səbəbi o deyil ki, Pifaqor teoremini Pifaqor çoxdan kəşf edib. Əksinə, zəmanə özü pifaqorları kəşf etməlidir.
- Müdrik adamlar savadlı adamlardan daha dəyərlidir. Ən azı ona görə ki, oxumaqla savadlı olmaq olur, müdrik isə yox.
- Mən adamların var-dövlətləri, vəzifələri, imkanları ilə öyündüklərini çox görmüşəm. Gördüklərim ancaq bunlar olsaydı, nə vardı ki!
- Nə qədər çox iyrənəcəksənsə, yaşamaq sənin üçün o qədər də çətin olacaq.
- Bəzi yerlərdə əvvəlcə adamın “arxası” görünür, sonra özü.
- Həyatda hər şeyin bir başlanğıcı və sonu olur. Sənə onun hansı mərhələsi düşürsə, onu da yerinə yetirirsən.
- Allahın yazığı gəldiyi adamlar ya çox-çox əvvəllər doğulublar, ya da çox-çox sonralar doğulacaqlar.
- Köhnə riyaziyyatçı, bu günkü yazar və sabahkı təqaüdçü kimi bütün ömrümü belə ifadə edə bilərəm: doğum tarixi, üstəgəl sonsuz problemlər bərabərdir heç nəyə!
- Allahım, ancaq özü üçün istəyənə, özün bilən qədər, bu millət, bu dövlət üçün yaxşı nəsə istəyənə isə hər şey ver.
- Yaxşı adamlar azaldıqca, yaxşı nəyimiz varsa - yaxşı dost da, yaxşı qonşu da, yaxşı işçi də... azalır və azalacaq. Deməli, yaxşı dost istəyən də, yaxşı qonşu arzulayan da, yaxşı işçi axtaran da... ilk növbədə yaxşı adamları qorumalıdır.
- Hər hansı bir işə nə vaxt başladığından daha çox, hardan başladığın vacibdir.
- Həssas olmayanların arasında nadir hallarda nadir istedad yiyəsi tapmaq olar.
- Həyat öz axarı ilə gedir. Sadəcə bəziləri hardasa ilişib qalırlar.
- Mənə pislik edənlərin hamısını çoxdan bağışlamışam. Ona görə yox ki, bağışlamaq yaxşı şeydir. Sadəcə, həmişə bu qənaətdə olmuşam ki, insan yalnız və yalnız əlindən gələn işlə məşğul olmalıdır. Əminəm ki, mənə pislik edənlərin də əlindən yalnız pislik etmək gəlib.

**Rasif TAHİROV**



### “AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ” QAPALI SƏHMDAR CƏMİYYƏTİ AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI

**Aşağıda adları göstərilən ixtisaslar üzrə 2014-cü il üçün doktoranturanın qiyabi şöbəsinə qəbul**

**ELAN EDİR:**



1. 3319.03 - “Gəmiqayırma və gəmi təmiri texnologiyası” - 2 yer;
2. 3319. 01 - “Gəmiçilik texnikası” - 1 yer;
3. 3319.02 - “Gəmiçilik və su nəqliyyatının istismarı:
doktoranturaya - 1 yer;
dissertanturaya - 2 yer.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:
- ərizə (Azərbaycan Dövlət Dəniz Akademiyası rektorunun adına);
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4sm ölçüdə);
- iş yerindən xasiyyətnamə;
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti;
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

Sənədlər 03.10. 2014-cü il tarixədək Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 18 ünvanında yerləşən Azərbaycan Dövlət Dəniz Akademiyasının əsas binasında (310-cu otaqda) qəbul olunur.

**Telefon: 493-36-44 (115); 493-63-07**

## "DƏNİZ"İN GÜLÜŞ PAYI

- Şəki paxlavası şirindir, yoxsa Şəki lətifəsi?
- Şəki lətifəsi.
- Niyə belə fikirləşirsən?
- Çünki Şəki paxlavasından doymaq olur, Şəki lətifəsindən isə yox.

***

- Qonşu, olmaz ki, gecələr yox, gündüzlər skripka çalasınız?!
- Niyə?
- Çünki gündüzlər işdə oluram, gecələr isə yatmalıyam. Bilmirəm nədəndir, mənim uşaqlıqdan mişar səsindən ətim ürpəşir.

***

- Doğrudur ki, su gələn arxa bir də gələr?
- Onu su idarəsi olmayanda deyiblər.

***

- Əmin olmadığın işə başlama.
- Onda məni başa salın görək, bir işi görməsəm, onu görə biləcəyimə necə əmin ola bilərəm?

***

- Adamı niyə daha çox arxadan vururlar?
- Yəqin rəhm edirlər. İstəmirlər ki, vurulan anımızda həyəcanlanaq.

***

- Heyf deyildi köhnə kişilər...
- Sən niyə təəssüflənirsən? Sən də bir çoxları kimi hər şeyin təzəsini xoşlayanlardansan axı!

***

- Görəsən, dənizdə mənə uyğun iş olar?
- İnanmıram. Sahildə axtar. Sahildə hətta zibil də nəyəsə yarayır.

***

- Gender bərabərliyi nə deməkdir?
- Kişilər qadınların işlərini ələ keçirəndən ən böyük bərabərsizlik!

***Rasif TAHİROV***

## Yeməkdən sonra gələn yuxunun səbəbi

**Yeməkdən sonra bəzi insanlar özlərini yorğun hiss edir və yatmaq istəyirlər. Yuxunun yaranma səbəblərindən biri çoxlu qidalanmadır. Türkiyəli mütəxəssisin sözlərinə görə, bu həzm prosesi ilə əlaqəlidir. Belə ki, yemək yedikdən sonra orqanizm həzm üçün bol miqdarda enerjiyə ehtiyac duyur.**

Başqa sözlə, nə qədər çox qida qəbul edilərsə, bir o qədər enerjiyə ehtiyac yaranır. Xərclənən enerjidən sonra yaranan yorğunluq yuxulamağa səbəb olur.

Milli.az bizimyol.info-ya istinadən xəbər verir ki, qida qəbulunda boşqabları kiçiltmək, başqa sözlə düzgün qidalanmaq lazımdır. Çünki, yeməkdən sonra qan şəkərində görülən artımın sürəti və miqdarı yeyilən qidalara görə dəyişik olur. Az qidalanmaq həmin prosesə kömək edərək, yeməkdən sonra yorğunluğu və yuxu gəlməsini azaldır. Karbohidratlı qidalar da yuxu yaradır. Bu cür qidalanmadan sonra qanda şəkər artır. Qanda olan şəkərin bütün hüceyrələrə girməsini mədəaltı vəz təmin edir. İnsulin daha sonra triptofan amin turşusunu çıxarmağa kömək edir. Triptofan, serotonin hormonunun istehsalında aktivdir. Serotonin hormonu yuxunu tənzimləyir. Çox karbohidratlı qidalardan istifadə etdikdə serotonin istehsalı artır və bu da yuxulamağa səbəb olur. İnsulinin miqdarını artırmaq da bu prosesə yaxşı təsir edir. Çünki insulinin təsiri ilə triptofan salınır. Nə qədər karbohidratı çox olan yeməklərlə qidalansanız, qan şəkəri o qədər sürətlə yüksələr. Ani insulin yüksəlməsi eyni zamanda daha tez acmağımızı təmin edir. Bu da heç istəmədiyimiz başqa təsirlərə səbəb olur. Bu baxımdan, qidalanmaya diqqət göstərmək vacibdir. Yemək yedikdən sonra yuxunuzun gəlməsini istəmirsinizsə, bol karbohidratlı qidaların yerinə tərəvəz, çərəz, balıq və toyuq kimi qan şəkərinə təsir etməyən qidalar qəbul edə bilərsiniz. Çünki düzgün qidalanmaq insanı həm ac olmaqdan, həm də yeməkdən sonra yaranan yuxulamadan qoruyur.



**BAŞ REDAKTOR**
**Rasif İman oğlu TAHİROV**

**ÜNVANIMIZ:**
**Bakı şəhəri, B. Ağayev küçəsi, 117**
**TELEFONLARIMIZ**
**Baş redaktor (050) 670-33-76,**
**redaktor müavini (050) 341-26-40**

***Qəzetin təsisçisi***
**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətidir**

**Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “OL” MMC-də çap olunmuşdur**

**Şəhadətnamə 271**
**Sayı 2000**
**Sifariş 148**